LAWELS

# İYUL AYINDA QANUNVERİCİLİYƏ EDİLƏN MÜHÜM DƏYİŞİKLİKLƏRİN XÜLASƏSİ

*Cari buraxılış –XV, 03 avqust, 2021-ci il*

*LAWELS bloqunun Qanunvericilik yenilikləri buraxılışları Azərbaycan Respublikası qanunvericiliyinə edilən dəyişikliklər və digər yeniliklərin aylıq icmalı üzrə cari və xüsusi buraxılışları ehtiva edir.*

| Ana səhifə | Bütün buraxılışlar | Bizimlə əlaqə |
|---|---|---|

**1. Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Fərman imzaladı.**

İşğaldan azad edilmiş ərazilərdə gələcək iqtisadi inkişafı təmin etmək, yeni infrastrukturların yaradılması dövlətin əsas fəaliyyətlərindən birinə çevrilmişdir. Bu istiqamətdə atılan addımlardan biri də 7 iyul 2021-ci il tarixli Fərmandır. Fərmana əsasən iqtisadi rayonların yeni bölgüsü aşağıdakı kimidir :

1. Bakı iqtisadi rayonu (Bakı şəhəri);
2. Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);
3. Abşeron–Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);
4. Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);
5. Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);
6. Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

7. Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);
8. Quba–Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);
9. Lənkəran–Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);
10. Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);
11. Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);
12. Şəki–Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);
13. Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);
14. Şirvan–Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

Daha ətraflı buradan tanış ola bilərsiniz.

## 2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edildi.

08 iyun 2021-ci il tarixli dəyişikliklə Məcəllənin 440-cı maddəsi yeni redaksiyada verilmişdir.

İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklər bank və ya bank olmayan kredit təşkilatı tərəfindən mərkəzləşdirilmiş kredit reyestrinə və (və ya) kredit bürosuna eləcə də Kredit ittifaqı tərəfindən mərkəzləşdirilmiş kredit reyestrinə və (və ya) kredit bürosuna "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Kredit ittifaqları haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş məlumatların həmin qanunlarda müəyyən olunmuş qaydada və müddətdə təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə görə inzibati məsuliyyətin müəyyən edilməsi ilə bağlıdır.

Daha ətraflı buradan tanış ola bilərsiniz.

## 3. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edildi.

09 iyul 2021-ci il tarixli dəyişikliklə məhkəmə aidiyyətinin müəyyənləşdirilməsində aidiyyət qaydalarının 01 oktyabr 2021-ci il tarixindən məcburetmə və öhdəliyin icrası haqqında iddialara şamil olunması müəyyən edilmişdir.

Məcəlləyə edilmiş əsas dəyişikliklərdən biri isə yazılı məhkəmə icraatı ilə bağlıdır. Mübahisəni mahiyyəti üzrə həll etməyən məhkəmə qərardadları və kassasiya mümkün sayıldıqda, Ali Məhkəmədə işə yazılı icraat qaydasında baxılacaq. Kassasiya qaydasında işə baxan məhkəmə

hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etdikdə, işə məhkəmə iclasında baxılması barədə qərardad qəbul edəcək.

Daha ətraflı buradan tanış ola bilərsiniz.

**4. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi.**

Dəyişikliyə əsasən Mediasiya Təşkilatının qeyri-kommersiya hüquqi şəxs hesab olunması müəyyən edilmişdir.

Bundan əlavə, müəyyən edilmişdir ki, mediator uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim etməyə borcludur.

Digər bir dəyişikliyə əsasən isə məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.

Daha ətraflı buradan tanış ola bilərsiniz

**5. Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun Nizamnaməsi qəbul edildi.**

Nizamnamənin 1-ci maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO ixracın və investisiyaların təşviq edilməsi istiqamətində fəaliyyət göstərən, ixracatçılara və investorlara bir sıra xidmətlər göstərən publik hüquqi şəxsdir.

İxracın və investisiyaların təşviqi üzrə dövlət siyasətinin formalaşdırılmasında və normativ hüquqi bazanın inkişafında iştirak etmək, ixracatçılar və investorlar üçün davamlı əlverişli mühitin yaradılması proseslərində iştirak etmək və s. Agentliyin əsasə fəaliyyət istiqamətlərini əhatə edir.

Agentliyin idarəçiliyi məsələləri də Nizamnamədə öz əksini tapmışdır. Belə ki, agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir. Agentliyin idarəetmə orqanları Müşahidə Şurası və İcraçı direktordur. Müşahidə Şurası Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. Şura onun sədri də daxil olmaqla 7 üzvdən ibarətdir. Şura üzvlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Şuranın sədri Azərbaycan Respublikasının iqtisadiyyat naziridir.

Daha ətraflı burada tanış ola bilərsiniz.